# Cəbrayıl öz tarixinin ən parlaq və qürurverici günlərinə şahidlik edir

***Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə Tərtər, Bərdə və Cəbrayıl rayonlarına səfər edərək, burada bir çox mühüm sosial və istehsal obyektərinin təməlqoyma və açılış mərasimlərində iştirak edibdir. Dövlətimizin başçısının həmin tədbirlərdəki çıxışları ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələrinin nümayəndələri tərəfindən dərin razılıq hissilə qarşılanıb. Qarabağ tarixinin tanınmış araşdırmaçısı, yazıçı-publisist, əslən Cəbrayıl rayonundan olan Vaqif Rüstəmov bu barədə fikirlərini bizimlə bölüşərkən dedi:***



--Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub. Möhtərəm Prezidentimiz səfər çərçivəsində Cəbrayılda bir çox müəssisələrin təməlini qoyub. Bunların hər biri böyük müəssisələr olacaq və burada doğma ata-baba yurdlarına qayıdan yüzlərlə insan işləyəcək.

Sonra Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub. Xüsusi qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyevin Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşü son dərəcə səmimi və yüksək əhval-ruhiyyədə keçib.

Dövlətimizin başçısı görüşdəki çıxışında deyib: "Əziz cəbrayıllılar, əziz dostlar, sizi səmimiyyətlə salamlayıram və "Cəbrayıla xoş gəlmisiniz" deyirəm. Cəbrayıllılarla müzəffər ordumuzun qələbəsindən sonra ilk görüşümdür və bu görüşü məhz oktyabrın 4-də keçirmək xüsusi məna daşıyır. Çünki düz bir il əvvəl məhz oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini işğalçılardan azad etdi və bu gün bu şanlı tarixi birlikdə qeyd etmək üçün mən cəbrayıllıları onların öz yurduna, vətəninə dəvət etdim. Ona görə "Cəbrayıla xoş gəlmisiniz" demək sözləri ilə öz çıxışıma başlayıram. Amma əminəm ki, bundan sonra mən Cəbrayıla gələndə həmişə cəbrayıllılar mənə "Xoş gəlmisiniz, cənab Prezident" deyəcəklər".

Bu sözlərdə nə qədər böyük səmimiyyət və pozitiv bir enerji var! Bu sözləri yalnız qalib sərkərdə, xalqını, millətini, dövlətini sonsuz məhəbbətlə sevən və ölkəsinə, xalqına güvənən və ondan güc, qüvvət, enerji alan bir dövlət başçısı və sərkərdə deyə bilərdi! Prezident İlham Əliyev çağdaş dünyanın ən görkəmli və ən xoşbəxt dövlət başçılarındandır. O, xalqına əbədi qürur və zəfər bəxş etmişdir!

Dövlətimizin başçısının vurğuladığı kimi, oktyabrın 4-ü xalqımızın tarixində əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu qələbənin çox böyük mənası var idi. Belə ki, ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bu qələbədən sonra şanlı Azərbaycan Ordusu öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir.

Bəli, bu gün Azərbaycan öz tarixinin ən şərəfli, qürurlu günlərini yaşayır. Son 200 ildə Azərbaycan ilk dəfə torpaq itirmədi, itirilmiş torpaqlarını bərpa etdi. Bunu yalnız Prezident, Ali Baş Komandan İlham Əliyev edə bilərdi! Bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Cənab İlham Əliyev bu uzaqgörən və müdrik siyasəti böyük uğurla davam etdirdi və Azərbaycanı xoş günlərə gətirib çıxardı.

Müharibənin hər günü cəbrayıllılar üçün, demək olar ki, bir ilə bərabər idi. Axı böyükdən kiçiyə hamı ön cəbhədə gedən döyüşləri səbirsizliklə izləyirdi və parlaq nəticəni də, Allaha şükür, gördülər. Bu gün bütün cəbrayıllılar Prezident İlham Əliyevlə öyünür və fəxr edirlər. İndi onların, həqiqətən, sevincinin həddi-hüdudu yoxdur.

Bəli, bu gün Cəbrayıl öz tarixinin ən parlaq və qürurverici günlərinə şahidlik edir. Düşünürəm ki, ən yaxın vaxtda Cəbrayıl əhalisi doğma yurd yerlərinə qayıdacaq. Xalqımız bu torpaqlarda əbədi və firavan ömür sürəcək. Bu an hər birimizin qəlbindən dilinə bu ecazkar sözlər axır: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 oktyabr.- S.6.